# Multikulturalizm ölkəmizin çoxəsrlik mənəvi sərvətidir

***Azərbaycanda nümunəvi tolerantlığın kökü ilk növbədə xalqımıza məxsus dəyərlər sistemi və milli özəlliklərə bağlı məqamlarla əlaqədardır. Respublikamız çoxmədəniyyətli və zəngin mənəvi irsə malik ölkədir.***

Biz hər zaman – istər dini, istərsə də etnik nöqteyi-nəzərdən dözümlülüyümüzlə seçilmişik. Tariximiz boyu Azərbaycan əhalisi müxtəlif etnos və mədəniyyətlərlə ünsiyyətdə dözümlü və tolerant münasibəti ilə seçilmişdir. Biz səngərdə üz-üzə dayandığımız halda belə düşmənin yaralısına ilk tibbi yardım göstərməyi özünün insani vəzifəsi hesab edən qədim millətin nümayəndələriyik. Bu tolerantlığın kökü ilk növbədə bizim genimizə, böyük və qədim mədəniyyətin daşıyıcısı olmağımıza dayanır.

Multikulturalizm – Azərbaycanda çoxəsrlik zəngin mədəni və mənəvi irsin müasir dövrdə təqdimatıdır. Qloballaşma isə, əslində, yalnız mədəniyyətlərin biri-birini daha yaxından tanıması və yaxınlaşması deyil, eyni zamanda, öz mədəniyyətini ən yaxşı, ən uğurlu şəkildə təqdim etmək üçün bir rəqabətə girməkdir. Bu gün dəyərlərin savaşının getdiyi bir zamanda biz də öz mədəniyyətimizdən qaynaqlanan dəyərlərimizi ortaya qoymuş oluruq.

XXI əsrin ilk ili 11 Sentyabr hadisələri mədəniyyətlərarası münaqişələr dövrünün başlaması ilə yadda qaldı. İstər Yaxın Şərqdə baş verən münaqişələr fonunda dini radikalizmin genişlənməsi, istərsə də Avropanın özündə yad mədəniyyətlərə münasibətdə fobiyaların ən bariz şəkildə ortaya çıxması, multikulturalizmin beynəlxalq münasibətlər sistemi baxımından önəmli səviyyəyə yüksəlməli olduğunu sübut etdi. Ətrafımızda baş verən münaqişələrə, çəkişmələrə rəğmən, ölkəmizdə sabitlik, əmin-amanlıq, dünyanın istənilən ölkəsindən müxtəlif mədəniyyətlərə sahib insanların mehriban yaşaması, dini və irqi ayrı-seçkiliyin olmaması multikulturalizmin ən parlaq nümunəsidir. Azərbaycanda multikulturalizm ilinin elan olunmasının ən böyük səbəbi məhz budur. Dövlət başçısı İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, ölkəmizdə olan inkişaf, əslində bu gün dini-məzhəb və etnik münaqişələrin məngənəsində əzilən region ölkələri üçün bir örnək və nümunədir.

Bu gün Azərbaycanda ayrı-ayrı mədəniyyətlər, müxtəlif dinlərin inkişafı üçün hər cür şərait yaradılıb. Son zamanlar ölkəmizin bir sıra mötəbər və ictimai-siyasi əhəmiyyətə malik forum və tədbirlərə ev sahibliyi etməsi ilk növbədə, artan nüfuz və eləcə də, oynadığımız rolun əhəmiyyətindən xəbər verir. Beynəlxalq Humanitar Forum, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Zirvə görüşü, Krans Montana Forumu, Davos Forumu, III Qlobal Bakı Forumu ən bariz nümunələrdir. Bu tədbirlərin hər birində dünyanı ciddi şəkildə düşündürən siyasi, sosial, iqtisadi, mədəni problemlər siyasi xadimlərin, diplomatların, müxtəlif ölkələrin dövlət təmsilçilərinin müzakirəsinə çıxarılır. Bu tip tədbirlərin, beynəlxalq forum və konfransların vasitəsilə sivil dialoqların qurulması, problemlərin həllinin axtarılması son dərəcə vacibdir.

Dünyada baş verən istər qlobal, istərsə də lokal xarakterli münaqişə və problemləri müzakirə edən belə tədbirlərin paytaxtımızda keçirilməsi isə müsbət qiymətləndirilməlidir. Bu kimi forumlarda, adətən, qlobal və regional problemlər nəinki müzakirə edilir, həmçinin problemlərin həlli yolları ilə bağlı da tövsiyələr hazırlanır. Belə forumların ölkəmizdə keçirilməsi Azərbaycan həqiqətlərinin, torpaqlarımızın işğal faktının bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırılması və ədalətli həllini tələb etməyimiz baxımından olduqca vacibdir.

Beləliklə, aprelin 25-27-də Bakıda “İnklüziv cəmiyyətlərdə birgəyaşayış: çağırış və məqsəd” şüarı altında keçirilən BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu da Azərbaycanın bu qlobal və regional mənada multikulturalizm prosesindən faydalanması baxımından öz məzmunun ağırlığı ilə seçildi. VII Qlobal Forumda dövlət və hökumət başçıları, yüksək səviyyəli dövlət və ictimai xadimlər, nazirlər, nüfuzlu beynəlxalq qurumların, dünyada tanınmış beyin mərkəzlərinin rəhbərləri, diplomatlar, elm adamları və digər şəxslər də daxil olmaqla, 2500 nəfərdən çox adamın iştirakı onu göstərdi ki, Bakı dünyanın humanitar paytaxtı hesab edilməyə tam layiq bir mərkəzdir. Çünki, bu gün bəşəriyyəti təhdid edən, demək olar ki, bütün məsələlər forumda müzakirə predmeti oldu. Ekstremizmə, terrora qarşı mübarzə, qlobal miqrasiya, qlobal vətəndaşlıq, təhsil, din, idman, gənclərin rolu, Bakı prosesi, inklüziv cəmiyyətin qurulması, multikulturalizm və digər məsələlərin gündəmə gətirilməsi Bakının dünyanın gələcək taleyini düşünən uğurlu məkan olduğunu sübut etdi. Xüsusilə bir daha vurğulanmalıdır ki, forumun Birləşmiş Millətlər Təşkilatı missiyası altında keçirilməsi tədbiri daha mötəbər edən amil oldu. Forum Bakının, bütövlükdə Azərbaycan dövlətinin dünyada reytinqini yüksələn xətlə müəyyənləşdirən amilə çevrildi.

***Vüqar ZİFƏROĞLU,***
***geosiyasi analitik,***
***BDU-nun dosenti,***
***“Oğuz” Müstəqil Araşdırmaçılar Qrupunun rəhbəri***